# Elm və təhsil naziri Dünya Bankının hesabat tədbirində iştirak edib




*Emin Əmrullayev*

**"Orta gəlir tələsindən yayınmaq: Azərbaycan üçün dərslər" adlı panel sessiyasında çıxış edib**






Fevralın 10-da Dünya Bankı Bakıda "Dünya İnkişafı haqqında Hesabat"ın (World Development Report 2024) təqdimatını keçirib.

Hesabatın nəticələri və onun əsasında regional təhlil hesabatın əsas müəllifləri və Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə baş iqtisadçısı tərəfindən təqdim edilib.

Bildirilib ki, "Dünya İnkişafı haqqında Hesabat" (WDR) 1978-ci ildən bəri Dünya Bankı tərəfindən nəşr olunan illik hesabatdır. Hər bir hesabat iqtisadi inkişafın müəyyən bir aspekti haqqında dərin təhlili təqdim edir.

Hesabat tədbirində Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, Mərkəzi Bankın sədri Taleh Kazımov, Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Roland Prays da çıxış ediblər.

Hesabat tədbiri çərçivəsində təşkil edilən "Orta gəlir tələsindən yayınmaq: Azərbaycan üçün dərslər" adlı panel müzakirəsində iştirak edən elm və təhsil naziri Emin Əmrullayev son on ildə ali təhsil müəssisələrinə qəbul göstəriciləri, adambaşına maliyyə mexanizmi, ümumi təhsilin əhatə dairəsi, təhsilalana ayrılan investisiya və digər bu kimi məsələlərdən danışıb.

## Təhsilalana ayrılan investisiyanın ədalətli bölgüsü önəmlidir

Son on ildə ali təhsil müəssisələrinə qəbul göstəricisi artıb və bu da kəmiyyət göstəricisidir. Keyfiyyətə gəlincə müəyyən problemli nüanslar var və bunu təkmilləşdirmək lazımdır. Bu çağırış tək bizdə yox, qlobal səviyyəli məsələdir. Təhsillə əlaqəli daha bir məqam adambaşı maliyyələşmə mexanizmidir. Təhsilalana ayrılan investisiyanın ədalətli bölgüsü önəmlidir. Misal olaraq, kompüter mühəndisliyi üzrə kadr hazırlığına ən yaxşı halda adambaşına illik olaraq 2 min dollar xərc çəkilir. Çünki bütün dünyada ən yaxşı gəlirli peşədir. Hesab edirəm ki, digər ixtisaslara baxanda burada qeyri-disbalans var. Təbii ki, sosial aspektlər də bu məsələdə rol oynayır. Bütün hallarda bərabərlik və ədalətlilik bu işdə əsasdır.

## Sertifikatlaşdırmadan keçə bilməyən 5300 müəllim işdən kənarlaşdırılıb

Son iki il ərzində 5300 müəllim sertifikatlaşma imtahanlarında uğur qazanmadığından işindən kənarlaşdırılıb. İmtahanlarda yaxşı nəticə göstərməyən müəllim təhsil sistemindən zamanla çıxarılır. Növbəti üç il ərzində də bu islahatlar davam etdiriləcək. İslahata başlayanda sıfırdan yox, mənfi 1-dən başlayıb sıfıra getmək əsas problemdir. Əgər dəyişikliyi indidən etməsək, bəzi müəllimlərin sonrakı 20-30 il fəaliyyətini düşünəndə nəticə heç də ürəkaçan olmaz. 2026-cı ilə qədər ölkə üzrə bütün fənn müəllimlərinin sertifikatlaşdırma imtahanlarına cəlbi nəzərdə tutulur. Əgər islahatlarımız uğurla davam etsə, nəticəsi zəif olan müəllim sayı azalacaq, amma bir müəllimə düşən şagird sayı da artacaq. Eyni zamanda, gənc müəllimlərin də təhsil sahəsində sayı 20% artacaq. İmtahan nəticələrinə baxsaq, gənc müəllim məzunlarından çox az sayda zəif nəticə göstərən olub. Böyük əksəriyyət testdən uğurla keçib. İslahatlar ən zəif müəllimlərin daha gənc və istedadlı müəllimlərlə əvəz olunmasına gətirib çıxaracaq.